# Vətən Müharibəsi Qəhrəmanının təhsil aldığı məktəbdə büstü qoyulub, xatirə muzeyi açılıb



Sumqayıtda Vətən Müharibəsi Qəhrəmanı şəhid mayor Anar Şükürovun büstünün və xatirə muzeyinin açılışı olub.

Anar Şükürovun təhsil aldığı Sumqayıt şəhər 25 nömrəli tam orta məktəbdə keçirilən açılış mərasimində şəhər rəhbərliyi, şəhidin ailə üzvləri, hüquq-mühafizə orqanları və ictimaiyyətin nümayəndələri, məktəbin kollektivi iştirak ediblər. Şəhidlərin xatirəsi yad edildikdən, Dövlət himni səsləndirildikdən və məktəblilərin ifasında ədəbi-bədii kompozisiya təqdim olunduqdan sonra Anar Şükürovun məktəbin foyesində qoyulan büstünün və xatirə muzeyinin rəmzi açılışını bildirən lent kəsilib.

Tədbirdəki çıxışlarda qəhrəmanın həyatından, döyüş yolundan və 44 günlük Vətən müharibəsində ordumuzun qələbəsindən danışılıb. Diqqətə çatdırılıb ki, Anar Mehman oğlu Şükürov 20 yanvar 1977-ci ildə Sumqayıt şəhərində anadan olub. Azərbaycan Ordusunun mayoru olan Anar Şükürov 2020-ci il sentyabrın 27-də başlayan İkinci Qarabağ müharibəsində Suqovuşanın azadlığı uğrundakı döyüşlərdə qəhrəmanlıq göstərib. O, oktyabrın 16-da Ağdərə istiqamətində gedən savaşda şəhid olub.

II Şəhidlər xiyabanında dəfn edilən A.Şükürov Prezidentin sərəncamı ilə "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2024.- 22 sentyabr (№207).- S.5.